# Soydaşlarımızı birləşdirən bir vətən var - AZƏRBAYCAN!

**Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədəki qərarın qəbulu birlik və həmrəyliyimizin formalaşmasında müstəsna əhəmiyyət daşıdı**



Azərbaycanın dövlət müstəqilliyinin təhlükədə olduğu bir zamanda dünya azərbaycanlılarını bir təfəkkür, məslək ətrafında birləşdirmək ideyasını gerçəkləşdirməklə diaspor təşkilatlarının əsasını qoyan ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti az bir zamanda özünü doğrultdu. Naxçıvan MR Ali Məclisinin sədri kimi Azərbaycanın suverenliyinin əbədiliyi naminə mühüm addımlar atan ümummilli lider bu sahədə də təşəbbüskarlığını göstərdi.

16 dekabr 1991-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "sərhəd hərəkatı"nın ikinci ildönümündə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədəki qərarın qəbulu birlik və həmrəyliyimizin formalaşmasında müstəsna əhəmiyyət daşıdı. Prezident İlham Əliyevin əlamətdar gün münasibətilə dünya azərbaycanlılarına müraciətində qeyd olunduğu kimi, bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə mühüm qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirilməsinə xüsusi diqqətlə yanaşmışdır.

Ümummilli lider Heydər Əliyev 9 noyabr 2001-ci ildə Dünya azərbaycanlılarının I qurultayındakı çıxışında vurğulayırdı ki, azərbaycançılıq xalqımızın çox böyük əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Milli dövlət ideologiyası kimi azərbaycançılıq bu gün hər vətəndaşın qarşısında dəqiq ifadəsini tapmış ideya kimi dayanır.

Bakıda gerçəkləşən Dünya Azərbaycanlılarının bütün qurultaylarında, Türk dövlət və cəmiyyətləri arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət edən tədbirlərdə, Türkdilli ölkələrin dövlət başçılarının zirvə toplantılarında azərbaycanlıların vahid ideya ətrafında formalaşması, təşkilatlanması aktuallığını qoruyur.

Dünya azərbaycanlılarının III qurultayında çıxış edən Prezident İlham Əliyevin bildirdiyi kimi, bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin ifadəsidir. Azərbaycan xalqının, dövlətinin xilaskarı ümummilli lider Heydər Əliyevin müstəqilliyimizə bəxş etdiyi və müstəsna əhəmiyyət daşıdığı bu ideologiya ən mütərəqqi və müasir tələblər səviyyəsində bu gün də inkişaf etdirilir.

Təkcə türk dünyasına deyil, beynəlxalq aləmdə baş verən proseslərə təsir imkanları artan Azərbaycan diasporunun güclənməsi, dost xalqlarla birgə fəaliyyəti dünyada mövqelərimizin möhkəmlənməsinə xidmət edir.

Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması, həyata keçirilən tədbirlər nəticəsində təşkilatlanma işinin sürətləndirilməsinin nəticəsidir ki, diaspor təşkilatlarımızın sayı artır. "Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir" vurğulayan cənab İlham Əliyev soydaşlarımızın fəaliyyətini yüksək qiymətləndirir.

Azərbaycan xalqının milli bayramları, əlamətdar günlər, 20 Yanvar və Xocalı faciələri ilə əlaqədar dünyanın müxtəlif ölkələrində çoxsaylı insanların iştirakı ilə keçirilən aksiyalar göstərir ki, təşkilatlar arasında koordinasiya işlərini yerinə yetirən diasporumuz fəaliyyət göstərdikləri respublikalarda siyasi qüvvə kimi tanınırlar. Azərbaycan dövlətinin xarici ölkələrdə bir parçası, simvolu olan səfirlik, konsulluqlarımız, diplomatik nümayəndəliklərlə birgə çalışan diaspor təşkilatları ölkəmizin xarici siyasətinin dünyada dəstəklənməsində, təbliğində yaxından iştirak edirlər. Bir millət, iki dövlət olan Türkiyə- Azərbaycan diaspor təşkilatları gücləri birləşdirməklə, siyasi, iqtisadi məsələlərin müzakirəsində vahid mövqedən çıxış edirlər.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi müştərək tarixi, milli-mədəni kökləri eyni olan türkdilli xalqların mövqeyinin, birliyinin regional əməkdaşlıqdan da artıq səviyyədə, dünya birliyində vacib amilə çevrilməsi aramızda olan iqtisadi, siyasi əlaqələrin inkişafının göstəricisidir.

Eyni istəkləri diqqətdə saxlayan türkdilli ölkələrin dövlət başçıları, hökumət rəhbərləri də vurğulamışlar ki, ümumi dəyərlərə arxalanaraq və keçmişin zəngin ənənələrindən bəhrələnərək daha da təkmilləşən türk birliyinin bölgədə stabilliyin qorunması üçün başlıca amilə çevrilməsində Türkiyə- Azərbaycan əlaqələri daha önəmli, əhəmiyyətlidir. Türkdilli Ölkələrin Parlament Assambleyasının təsis olunması, Cənubi Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının yaradılması barədə Türkiyənin təşəbbüsünün dəstəklənməsi, türkdilli ölkələrdə keçirilən yüksək səviyyəli tədbirlərdə bu birliyin daha da möhkəmlənməsi üçün əlavə tədbirlərin nəzərdə tutulması bölgədə baş verən ərazi münaqişələrinin həllinə istiqamətləndirilmiş mühüm addım olmaqla təhlükəsizliyin təminatı üçün nəzərdə tutulan birliyin əbədiliyinə nümunədir.

Azərbaycanla Türkiyə arasında illərdən bəri davam edən iqtisadi və siyasi həmrəylik enerji layihələrinin reallaşması ilə yenilməz gücə çevrildi. Əsrin möcüzəsi adlandırılan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin davamı olan TANAP, "Cənub" qaz dəhlizinin bu gün bütün dünya birliyi üçün böyük önəm daşıması deyilənlərə nümunədir.

Azərbaycanın təşəbbüsü ilə reallaşan, inşası başa çatmaqda olan Bakı-Tbilisi-Qars dəmiryolu siyasi, iqtisadi və regional əhəmiyyətinə görə enerji layihələrindən heç də geridə qalmır. Tarixi İpək yolunun bərpası kimi böyük önəm verilən, Çindən başlanan yol Xəzər regionunun əsas strateji əhəmiyyətli şəhərləri sayılan Bakı və Tbilisidən keçməklə İstanbula istiqamətlənəcək, Londonu, bütün Avropa ölkələrini birləşdirəcək.

İqtisadi sahədə eynilik təşkil edən maraqların siyasi müstəvidə də eynilik təşkil etməsi hər iki dövlətin diplomatiyasında da özünü büruzə verir. Dağlıq Qarabağ münaqisəsi ilə əlaqədar danışıqlarda və aparılan müzakirələrdə Türkiyənin məsələ ilə bağlı münasibətinin dəyişilməzliyi, beynəlxalq təşkilatlarda da "bir millət, iki dövlət" prinsipinə sadiqlik göstərilməsi vahid güc mərkəzinin yaranmasının ilkin şərtləri kimi diqqətdə saxlanılır. Münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə alternativ görmədiyini qətiyyətlə bildirən, Azərbaycanın ədalətli mövqeyini müdafiə edən, problem həll olunmayınca Ermənistanla sərhədlərini açmayacağını bəyan edən rəsmi Ankara eyni mövqeyə sadiqliyini bütün müstəvilərdə təsdiqləyir

Ortaq dil, ortaq əlifba ideyasının rellaşması üçün göstərilən səylər də bu amilə xidmət göstərir. Türk dövlətləri Parlament Assambleyasının yaradılmasında da təbii ki, əsas tərəf kimi Azərbaycan-Türkiyə dostluğuna böyük önəm verildi. Bu birlik eyni zamanda erməni lobbisinə, onların qərəzli bəyanatlarına cavab, azərbaycançılıq ideyasının təbliğinə dəstəkdir. Diasporumuzun güclənməsi o deməkdir ki, biz səsi dünyanın bütün qitələrindən eşidilən böyük xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir. İndi qürurla deyə bilərik ki, bizim xaricdə yaşayan, çoxsaylı üzvləri ilə milli maraqlarımızın, adət- ənələrimizin, tariximizin, həqiqətlərimizin, inkişaf konsepsiyamızın təbliğində fəallıq göstərən böyük ailəmiz vardır. Çoxminli soydaşımızı birləşdirən bu ailənin bir vətəni var - Azərbaycan! 50 milyondan artıq soydaşımızı birləşdirən Azərbaycan dilinə maraq artır. Ulu öndər Heydər Əliyevin formalaşdırıb, təkmilləşdirdiyi ümumxalq ideologiyamız və təfəkkürümüz azərbaycançılıq məfkurəsinin güclənməsinə xidmət edir. Türk dünyasının həmrəyliyində əvəzsiz rolu etiraf edilən, türkdilli xalqların birliyinin də təminatçısı olan Azərbaycan belə əhəmiyyətli missiyada daşıdığı rola sadiqliyini dövlət siyasətinin əsas prioritetləri kimi qoruyur və qoruyacaq.

Milli ideyanın formalaşması, şəxsiyyətin rolunun tanınması və millətin məqsədyönlüyünün dəstəklənməsi iqtisadi uğurlarımızın əsasını təşkil etməklə söydaşlarımızın birlik və həmrəyliyi üçün də başlıca amildir.

Müştərək tarixi, milli-mədəni kökləri eyni olan türkdilli xalqların mövqeyinin, birliyinin regional əməkdaşlıqdan da artıq səviyyədə, dünya birliyində vacib amilə çevrilməsi türkdilli dövlətlərin iqtisadi , siyasi əlaqələrinin inkişaf göstəricisidir.

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi, ölkəmizə inamın güclənməsi, dünya miqyasında artan nüfuzunun ifadəsidir. Ölkəmizə bu inam bir daha təsdiqləyir ki, Avropa ilə Asiyanın qovuşuğunda yerləşən, strateji əhəmiyyəti ilə seçilən ölkəmizdə əsasən iki güclü qüvvə qoşa qanad kimi inkişaf edir: Şərq təməli və Qərb təsiri. Son illərdə Azərbaycanın dünya birliyində mövqeyinin güclənməsi sivilizasiyaları birləşdirən dəyərlərə sadiqlikdən bəhrələnir. Bütün dünyanı düşündürən problemlərin müzakirəsi üçün Azərbaycanın etibarlı ünvan kimi seçilməsi ölkəmizdə mövcud olan sabitliyə verilən dəyər, davamlı inkişafımıza nikbin baxışlardır.

Dünya güclərini birləşdirən "Böyük-20"lərin sammitinə ev sahibliyi edən Türkiyənin mötəbər məclisdə Prezident İlham Əliyevin iştirakının özü "bir millət, iki dövlət" məfhumunun həyatda təsdiqidir. Meksikadan sonra Türkiyədə keçirilən belə yüksək səviyyəli sammitdə MDB ölkələri arasında təkcə Azərbaycanın qüdrətli ölkələr sırasında təmsil olunması eyni zamanda ölkəmizin iqtisadi inkişafının beynəlxalq səviyyədə təsdiqidir.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı dünya azərbaycanlılarını təbrik edən Prezident İlham Əliyev diaspor fəaliyyətinin yaradılmasını əhəmiyyətli missiya kimi yerinə yetirən ulu öndər Heydər Əliyev ideyalarının davam etdirilməsini aparılan məqsədyönlü siyasətin uğuru kimi diqqətə çatdırır, ölkəmizin keçdiyi inkişaf yolunda hər bir soydaşımızın payı olduğunu vurğulayır: "Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliğinə, milli maraqlarımzın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsinə öz töhfələrini verirlər." Dünyada hərbi-siyasi münaqişələrin artdığı bir zamanda Azərbaycanın sabitlik diyarı kimi tanınması, dünya birliyində müsbət təəssürat yaradan ölkəmizin tolerantlıq və multikulturalizm sahəsində qazandığı nailiyyətlərin təbliğ olunması milli həmrəylik və birliyimiz nəticəsində mümkün olmuşdur.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***